**UOT 881**

**NƏRMİN İBRAHİMLİ**

# ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİNƏ YÖNƏLDİLMİŞ ÇALIŞMALAR SİSTEMİ

*Məqaləsdə şifahi ünsiyyət vərdişlərinin inkişafında istifadə olunan tapşırıqların və fəaliyyətlərin tətbiqləri müzakirə edilmişdir. Ünsiyyət tapşırıqları tələbələrin motivasiyasını artıra, tələbələrin dil biliklərini mənimsəməsini sürətləndirə və dil öyrənmə təcrübəsini daha xoş hala gətirə bilər. Tapşırıqların əsas xüsusiyyəti ondan ibarətdir ki, tapşırıq şagirdlərin ehtiyaclarını ödəməlidir. Məqsədə və tələbələrin səriştə səviyyəsinə çatmaq üçün uyğun olmalıdır. Tapşırıqların seçimi şagirdlərin real dünya ehtiyaclarının diqqətlə təhlilinə əsaslanmalıdır. Ayrıca, tapşırıq həqiqi ünsiyyəti ortaya çıxarmalı, ingilis dilində danışığı təşviq etməlidir. Bu o deməkdir ki, əks əlaqə ilə məlumat mübadiləsi olmalıdır. Bu tip tapşırıqlarda şagirdlərin diqqəti dil formasına deyil, kontekstə yönəldilməlidir. Müəllimlər və dil müəllimləri, müvafiq olaraq kommunikativ səmərəliliyi və xarici dil mənimsəməyi təşviq edən vəzifələrin xüsusiyyətlərinə daha çox diqqət yetirməlidirlər.*

***Açar sözlər:*** *tapşırıq, şifahi nitq, dil bacarıqları, təhlil, ünsiyyət*

İngilis dilində şifahi nitq vərdişlərinin inkişaf etdirilməsində əsas vasitə kimi tapşırıq və çalışmalardan istifadə edilir. Müvafiq tapşınq və çalışmaların tətbiq olunması zamanı köməkçi vasitələrdən istifadə etməklə daha uğurlu nəticələrin əldə edilməsi mümkündür. Şifahi nitq vərdişlərini daha səmərəli şəkildə aşılanması məqsədilə audio-video vasitələr, rəsmlər və başqa əyani vasitələr istifadə edilir. İnformasiya-kommunikasiya texnologiyaları vasitəsilə dinlənilən kommunikasiya xarakterli mətnlər, real kommunikasiya parçaları olan nümunəvi dialoqların tələbələrə təqdim edilməsi, dildaşıyıcıları tərəfindən istifadə edilən leksik və qrammatik vahidlərin, və eləcə də intonasiya strukturlarının tələbələr tərəfindən mənimsənilməsinə müsbət təsir göstərir. Şifahi nitq tədrisində dil daşıyıcıları tərəfindən yazılmış autentik xarakterli müxtəlif nitq parçalarına üstünlük vermək, zənnimizcə, olduqca əhəmiyyətlidir.

Məlum olduğu kimi, tapşırıq və çalışmalar vərdiş və bacarıqların formalaşması və inkişaf etdirilməsinin ən məqsədəuyğun yolu hesab edilir. Bu və ya digər konkret məqsədə nail olmaq üçün, müvafiq olaraq, interaktiv xarakterli şifahi nitq, yazılı nitq, oxu və eşidib anlama bacarıqlarının inkişaf etdirilməsi və təkmilləşdirilməsinə yönəlmiş çalışmalar sistemlərinin işlənib hazırlanması dil fakültələrində ixtisas dili tədrisinin səmərəliləşdirilməsini təmin edən ən önəmli amillərdəndir.

İlk növbədə, hər bir çalışmanın əsas məqsədini müəyyən etmək olduqca vacibdir. Bundan əlavə, çalışmalar tələbələrin fəaliyyətlərinin xüsusi şəkildə təşkil edilməsini təmin edən əsas amillərdəndir. Onu da qeyd etmək lazımdır ki, təlim prosesində istifadə edilən çalışmalar həmişə müvafiq fəaliyyət növünün inkişaf etdirilməsi və təkmilləşdirilməsinə yönəldilməlidir. Bu da, öz növbəsində, hər hansı fəaliyyətin dəfələrlə təkrar edilməsini nəzərdə tutur. Çalışmalar psixoloji, didaktik, linqvistik və digər aspektlər baxımından təhlil oluna bilər. Lakin, hər bir çalışmanın uyğun olan yerdə istifadə edilməsi metodiki baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Tədris edilən xarici dildə, o cümlədən ingilis dilində tələbələrə şifahi nitq vərdişlərinfn aşılanması proseslndə ən çox istifadə edilən çalışma sistemlərindən danışarkən, ilk növbədə dil və nitq çalışmalarını qeyd etmək lazımdır. S.F. Şatilovun təklif etdiyi təsnifata əsasən nitq çalışmaları, öz növbəsində, şərti-nitq və real-nitq tapşırıqlarına bölünür. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, şifahi nitq vərdişlərinin inkişaf etdirilməsinə yönəlmiş çalışmalar sistemini işləyərkən, müvafiq nitq və vərdişlərinin əsas xüsusiyyətlərinin nəzərə alınması uğurlu nəticələrin əldə edilməsini təmin edir. Belə ki, bəzi metodist-alimlərin fikrincə müxtəlif

fəaliyyət növlərinin təllimində istifadə edilən dil çalışmaları şifahi nitqin əsasını, onun bünövrəsini təşkil edir. Dil çalışmalarının üstünlüyünü ayrı-ayrı dil strukturlarının məna, forma və istifadə edilməsi haqqında biliklərin əldə olunması və əldə edilmiş biliklərin möhkəmlədilməsi məqsədilə həmin strukturların süni şəkildə kommunikasiya prosesindən təcrid edilməsində görürlər [17].

Öz növbəsində, dil çalışmaları qrammatik, leksik və fonetik çalışmalara bölünür və dil aspektləri olan leksika, qrammatika və fonetika sahələrində möhkəm biliklərin mənimsənilməsi və dil vərdişlərinin formalaşdırılması vəzifəsini yerinə yetirir. Eyni zamanda, onu da demək lazımdır ki, hər hansı dil çalışması müvafiq biliklərin tətbiq edilməsi prinsipi əsasında qurulur, yəni burada tələbələr tərəfindən mənimsənilmiş qaydalara təkrar müraciət edilməsini nəzərdə tutur. Bu da şifahi nitq prosesində tələbələrdə diskursiv-məntiqi təfəkkürün inkişaf etdirilməsini tələb edir. Bu zaman diqqət leksik vahidlər, qrammatik və intonasiya strukturları deyil, nitqin məzmunu üzərində cəmləşməsini tələb edir. Dil çalışmalarından fərqli olaraq nitq çalışmalarınnın isə mütləq hər hansı kommunikativ məqsədə yönəldilir və beləliklə kommunikativ mənaya malik olur. Kommunikasiya prosesinin əsas məzmununu məhz həmin prosesdə iştirakçıları qismində çıxış edən insanların nitq fəaliyyətləri ilə təmin olunur. Bundan başqa, dil və nitq çalışmaları xarakter etibarilə tamamilə fərqli olaraq, burada münasibətlərin əhəmiyyətli dərəcədə konkret situasiyadan bilavasitə asılı olduğunu sübut edir. (Y.J.Passov).

ixtisas dilində şifahi nitq vərdişlərinin inkişaf etdirilməsinə yönəldilmiş və həmin xüsusiyyətləri nəzərə almaqla tərtib edilən çalışmalar sistemi aşağıdakı tələblərə cavab verməlidir:

1) Çalışmalar kompleks xarakterli və situativ-yönümlü olmalıdır.

2) Çalışmalar əlaqəli şəkildə təşkil edilən nitq materiallan əsasında qurulmalıdır;

3) Çalışmalar mənimsənilən linqvistik materiallardan nitq fəaliyyətlərində yaradıcı şəkildə istifadə edilməsi üçün lazımi şəraiti təmin etməlidir;

4) Çalışmalar nitq fəaliyyətinin növünə uyğun olaraq tərtib edilməlidir;

Müvafiq olaraq, nitq bacarıqlarının inkişaf etdirilməsinə yönəldilmiş çalışmaların aşağıdakı xüsusiyyətlərə malik olduğu qeyd edilir: 1) burada linqvistik materiallar əvvəlcədən təqdim edilmir; 2) linqvistik materiallar üzərində hansı əməliyyatların yerinə yetirilməsi dəqiqləşdirilmir; 3) danışan şəxsin diqqəti nitqin məzmunu üzərində cəmləşdirilir. Bir sıra metodist-alimlər nitq vərdişlərinin formalaşdırılması məqsədi ilə istifadə edilən çalışmaların bir sıra tələblərə uyğun olmalarının vacibliyini vurğulayırlar. Həmin şərtlər arasında onların situativ xarakterli olması, danışanın kommunikativ niyyətinin burada göstərilməsi tələbələrin diqqətinin ilk növbədə nitqin məzmunu və məqsədinə yönəldilməsi halda məzmun və formanın vəhdətinin təmin edilməsinin vacibliyini vurğulayırlar.

Şifahi nitq vərdişlərini aşılayarkən, müvafiq video materialların istifadə edilməsi ixtisas dilininyönümlü təliminin əhəmiyyətli dərəcədə səmərəliləşdirilməsinə xidmət edir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, təlim zamanı videonun imkanlarından heç də kifayət qədər istifadə edilmir. Bununla yanaşı tələbələrinin yaş xüsusiyyətlərinə uyğun olan əyani vasitələrin təlim prosesində istifadəsi də tələbələrə şifahi nitq vərdişlərinin aşılanması prosesinin intensivləşdirilməsinə xidmət edir. Belə ki, tələbələrə müəyyən bir şəkli göstərməklə ingilis dili müəllimləri üçün təkan verə biləcək, müxtəlif situasiyalar təqdim edə bilər. Şəkildə təsvir olunmuş situasiyalar əsasında tələbələr rollara girərək dialoq qura, müzakirə və fikir və ideyalarını özlərinin mövqelərini həmsöhbətlərinə bildirə bilər.

Qeyd edilməlidir ki, həm şifahi monoloji, həm də dialoji nitqin tədrisində tələbələrə yaradıcı qabiliyyətin aşılanmasına yönəldilən çalışmaların təqdim edilməsi daha səmərəli nəticələrin əldə edilməsini mümkün edir. İxtisas dili dərslərində yerinə yetirilən şifahi nitq ça-

lışmalarının növlərinə nəzər salaraq, aşağıdakı şərtlərə riayət edilməlidir:

• Təqlidi çalışmalar. Bu növ çalışmalar nitqin təqlidini nəzərdə tutur. Onu da qeyd etmək lazımdır ki, təqlid məna əlaqəsi yaratmaq məqsədi ilə deyil, müəyyən dil vahidinə diqqət yetirmək üçün həyata keçirilir. Tələbələr səslənən cümləlari dinləyir və onları təkrar edir. Bu növ çalışmaları yerinə yetirməkdə əsas məqsəd tələbələrə linqvistik materiallardan istifadə etmək vərdişlərinin möhkəmləndirilməsidir. Bu cür çalışmaları yerinə yetirərkən aşağıdakı şərtlərə riayət etmək məsləhətdir.

- Təqdim edilən çalışmalar tələbələrin şifahi nitq fəaliyyətinin mahiyyətini anlamasını təmin etməlidir;

• Qrammatik və ya fonoloji materialların məhdudlaşdırılması;

• Çalışmalar kommunikativ məqsədə yönəldilməlidir;

• Eyni növ çalışmalar həddindən çox olmamalıdır. Çalışmalar rəngarəng, müxtəlif, tələbələr üçün maraqlı olmalıdır.

• İntensiv danışma çalışmaları. Bu növ çalışmalar tələbələrin intensiv danışmasını stimullaşdırmalıdır.

• Dialoji nitqin tədrisinə yönəldilmiş çalışmalar. Tələbələr dialoqun süjet xəttinin mümkün komponentlərinin hamısmdan istifadə edərkən, dialoqun informativ funksiyası faktoqrafık (yalnız faktlar əsasında qurulan) xarakter əldə etmiş olur.

• Qarşılıqlı söhbətləşmə xarakterli çalışmalar. Bu növ çalışmalar qarşılıqlı ünsiyyətə əsaslanan dialoji nitq ünsiyyətini əks etdirir. Belə ki, ünsiyyət sual-cavab ilə bitirilə bilər. Eyni zamanda, ünsiyyət daha geniş xarakter daşıya bilər. Burada müəllimin replikaları tələbələrə nitqlərini struktur-sintaktik baxımdan qurmağa kömək göstərir. Bundan əlavə, müəllimin həvəsləndirici replikalar üslubi xarakterli məlumatın əks etdirilməsi üçün şərait yaradır. Müəllimin replikaları ünsiyyətin baş verdiyi konkret situasiyanı nəzərə almaq zəruriliyini nəzərdə tutur, tələbələrin qurduğu dialoqa isə funksional-üslubi vahidlik əlamətləri verilir.

Müasir metodikada hökm sürən cərəyanlara əsaslanaraq, qeyd etmək lazımdır ki, aşağıdakı fəaliyyət növləri və onlarla əlaqədar olan çalışmalar növlərinin şifahi nitqin kommunikativ-yönümlü, funksional-yönümlü tədrisinə xidmət edən:

1. Rollu oyunlarla bağlı çalışmalar tələbələri öz fikir və ideyalarından yaxud kartlarda verilmiş məlumatda istifadə edərək kiçik səhnəciyi canlandırmağa yönəldir. Rol oyununun məzmunu təqdim olunur və rollar seçilir. Tələbələrə varvəziyyəti müzakirə etmək üçün minimum planlaşdırma vaxtı verilir. Sonda tələbələr hiss etdiklərini və bu barədə nələri öyrəndiklərini müzakirə edirlər. Rollu oyunlar dildə yeni bacarıqları tətbiq etmək üçün ekkeftiv bir üsuldur.

2. Simulyasiya daha geniş rollu oyundur. Bu növ çalışmaları yerinə yetirərkən əsasən kartlardan istifadə edilir. Sinifdəki bütün şagirdlərə xüsusi rollar verilir və qurulmuş kontekstdə bir-biri ilə qarşılıqlı əlaqə quraraq nitq bacarıqlarını inkişaf etdirməyə, həmçinin real kontekstdə fikirlərini ifadə etməyə kömək edir. Simulyasiya tələbələrdə tənqidi düşüncə, problem həll etmə və münaqişə həll etmə bacarıqlarının inkişaf etdirilməsində böyük rol oynayır.

3. Dram oyunları adətən hərəkət və təxəyyül tələb edən qısa oyunlardır.

4. İmprovizasiya. Bir səhnə improvizə olunur. Tələbələr müxtəlif xarakterləri ifa edirlər.

5. Tamaşa ssenarisinin ifa edilməsi qısa yazılı ssenarilərin tələbələr tərəfindən oynanılır.

6. Hazır improvizə olunan dram. Kiçik qruplarda tələbələr qısa tamaşa uydurur və məşq edirlər, daha sonra isə başqaları üçün ifa edirlər.

Qeyd etmək lazımdır ki, təsvir etdiyimiz şifahi nitq vərdişlərinin inkişaf etdirilməsinə istiqamətlənmiş çalışmaların yerinə yetirilməsi ixtisas dilinin kommunikativ yönümlü tədrisi prosesinin mühüm bir hissəsini təşkil etməlidir. Onu da qeyd etmək lazımdır ki, tələbələrdə

şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə dialoji ünsiyyətin emosional modallığı baxımından əhəmiyyət kəsb edən tapşırıq və çalışmaların yerinə yetirilməsinə xüsusi diqqət yetirilməlidir.

**ƏDƏBİYYAT**

1. Besse, H. 1981. "The Pedagogic. Authenticity of a Text", in The teaching of Listening Comprehension, ELT Document Special, London: The British Council. 20-29.
2. Morrow, K. and M.Schocker. 1987. "Using Texts in Communicative Approach"; ELT Journal, 14\4; 248-256.
3. Breen, M.P., 1985. "The Social Context for Language Learning - a Neglected Situation?" In ''Studies in Second Language Acquisition" vol. 7, pp. 135-58.
4. Brumfit, C.J. 1984. Communicative Methodology in Language Teaching. The Roles of Fluency and Accuracy, Cambridge, Cambridge University Press.
5. Nunan, D. (1991). Designing tasks for the communicative classroom. New York: Cambridge University Press.
6. Willis, J. (1996). A framework for task-based learning. London: Longman.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: nermin.iskenderova.92@gmail.com***

**Narmin Ibrahimli**

**A SYSTEM OF TASKS AİMED AT DEVELOPİNG ORAL SKİLLS**

This paper has discussed the applications of the tasks and activities which are used in the developing of oral communication skills. Communicative tasks can enhance students' motivation, accelerate students' acquisition of language proficiency and make the language learning experience more enjoyable. The main characteristic of tasks is that, task has to address students' needs. It has to be appropriate to achieve the goal and to the proficiency level of the students. Selection of the tasks should be based on a careful analysis of the real-world needs of the learners. Also, the task must elicit real communication, promote conversation in English. This means that there has to be exchange of information with feedback. In this type of tasks students' attention should be centered on context, not on the language form. So that teachers and language educators need to give more attention to the properties of tasks that respectively aim to promote communicative efficiency and foreign language acquisition.

**Keywords**: *task, oral speech, language skills, analysis, communication*

**Нармин Ибрагимли**

**СИСТЕМА УПРАЖНЕНИЙ НАПРАВЛЕННЫХ НА РАЗВИТИЕ УСТНОЙ РЕЧИ**

В этой статье обсуждались приложения задач и действий, которые используются для развития навыков устного общения. Коммуникативные задания могут повысить мотивацию учащихся, ускорить овладение ими языковых навыков и сделать изучение языка более приятным. Основная характеристика заданий заключается в том, что они должны отвечать

потребностям студентов. Он должен соответствовать достижению цели и уровню знаний учащихся. Выбор задач должен основываться на тщательном анализе реальных потребностей учащихся. Кроме того, задача должна вызывать реальное общение, способствовать разговору на английском языке. Это означает, что должен быть обмен информацией с обратной связью. В задачах этого типа внимание студентов должно быть сосредоточено на контексте, а не на языковой форме. Таким образом, учителя и преподаватели языка должны уделять больше внимания свойствам задач, которые соответственно направлены на повышение коммуникативной эффективности и усвоения иностранного языка.

**Ключевые слова**: *задание, устная речь, языковые навыки, анализ, общение*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 15.01.2021**
**Son variant 05.03.2021**